**Onun rəqsə marağı və sevgisi uşaqlıqdan yaranıb. Türkiyədə doğulub boya-başa çatsa da, kiçik yaşlarından ata və babalarının doğma yurdu Azərbaycana olan sevgisi ilə böyüyüb. Bu gün də həmin sevgi ilə yaratmış olduğu "Anka" Azərbaycan rəqs və sənət qrupunun timsalında rəqslərimizi, milli-mədəni irsimizi təkcə Türkiyədə deyil, həm də beynəlxalq festival və tədbirlərdə uğurla təmsil edir. Qonağımız Türkiyədə yaşayan Azərbaycan əsilli tanınmış xoreoqraf, yazar Dərya Akdəmirdir.**

# Milli rəqslərimizi ifa etməyi sevirəm



***– Dərya xanım, istərdik ki, əvvəlcə oxucularımız sizi daha yaxından tanısın.***

– 1979-cu ildə Türkiyədə İğdırda dünyaya göz açmışam. Dədə-babam Qarabağda yaşayırmış. O dövrdə ermənilər azərbaycanlı əhaliyə qarşı soyqırımı törədəndə məcbur olub didərgin düşmüşlər. Çox məşəqqətdən sonra İğdıra pənah gətirmişlər. Orada yaşayarkən Vətən həsrəti o qədər güclü olub ki, öz el-oba adını–Alxanlını burada məskunlaşdıqları yerə qoymuşlar. Sonrakı dövrdə bələdiyyələr tərəfindən kəndin adı dəyişdirilərək Gözəldərə adlandırılıb. Təəssüf ki, babalarım İğdırda da ermənilərin soyqırımına məruz qalmışlar.

Müzəffər babam soyqırımında öz ailəsini itirmiş, uşaq ikən qaçhaqaçda bacısından ayrı düşmüşdü. Ömür boyu bacısını axtardı babam. Nəhayət, uzun sürən axtarışlardan sonra yaşlı vaxtında bacısına qovuşdu. Onların bu qəmli taleyi o qədər təsiredicidir ki, hekayələrimin birini buna həsr etmişəm. Onlar soyqırımı günlərində uşaq ikən Ağrıda bir-birindən ayrı düşmüşdülər. Sonra öyrəndik ki, bacısını qayanın dibində bir nəfər tapıb, öz qızı kimi böyüdüb. Ahıl yaşlarında bacı-qardaş görüşdülər. Zaman-zaman ermənilərin xalqımıza etdilər. Zülm və soyqırımlar unudulmamalı, onlardan ibrət dərsi alınmalıdır.

***– Bu gün rəhbəri olduğunuz "Anka" Azərbaycan rəqs və sənət klubunun səsi-sorağı müxtəlif beynəlxalq festivallardan, tədbirlərdən gəlir. "Anka" hansı zərurətdən yaranıb?***

– Yeddi yaşından rəqslə məşğulam. Rəqs mənim Vətənimə olan sevgimin bir ifadəsidir. 2016-cı ildə bu rəqs klubunu qurmuşam. Əvvəlcə dərnəyim var idi, sonra mən onu kluba çevirdim. Çünki klub olduğu zaman beynəlxalq platformalarda Azərbaycanı daha yaxşı və yüksək səviyyədə tanıtmaq imkanı çoxdur. Bir fərd olaraq Vətənim üçün nəsə etmək istədim. Buna görə də düşündüm ki, mən onsuz da rəqsi sevirəm, oynayıram, bəs niyə bunu öyrətməyim, mədəniyyətimizi yaşatmayım? Uşaqlıqdan Məmməd Persiani təxəllüslü müəllimimiz bizə milli rəqsləri öyrədirdi. Onun sayəsində milli rəqslərimizi daha da çox sevdim, Azərbaycana olan tükənməz sevgim yarandı.

"Anka" sözünün mənası Anadolu və Qafqaz sözlərinin qısaltmasıdır, Anka folklorumuzda həm də Simurq quşu deməkdir. Bu gün Türkiyədə Azərbaycan rəqslərinə maraq və sevgi böyükdür. Uşaqlar bizim klubda rəqsin incəliklərini öyrənirlər. Yaxın gələcəkdə marağı nəzərə alaraq böyüklər üçün də qrup təşkil etməyi düşünürük. Əsas odur ki, milli rəqslərimizi tanıdaq və sevdirək. Gənclər bizim rəqs ifalarımızı görəndə onun zərifliyinə heyran olur, milli geyimlərimizdə rəqs edən üzvləri şahzadəyə bənzədirlər.

Klubumuza gələnləri ilk olaraq Türkiyə və Azərbaycan bayraqları cəlb edir. Bu da səbəbsiz deyil. Əsas məqsədimiz iki qardaş xalq və dövlət arasında qardaşlıq və dostluğu ən yüksək zirvələrə qaldırmaq və milli mədəni irsimizi qürurla təmsil etməkdir.

***– Bakıya tez-tez gəlirsiniz, budəfəki səfəriniz nə ilə bağlıdır?***

– Bakı, Azərbaycan mənim ürəyimdir. Həmişə, hər yerdə deyirəm, qəlbimdə iki Vətənim var: Azərbaycan və Türkiyə. Bakıya gələndə ruhən dincəlirəm, sevgi ilə dolur qəlbim. Hər dəfə gələndə ilk olaraq, Şəhidlər xiyabanını, Fəxri xiyabanı və Türk şəhidliyini ziyarət edirəm. Bu dəfə də elə etdim. Sənət dostlarımla ulu öndər Heydər Əliyevin məzarını, eləcə də digər tanınmış sənətkarlarımızın məzarlarını ziyarət etdim. Xiyabanı gəzə-gəzə fikirləşdim ki, Azərbaycan xalqı, həqiqətən, böyük xalqdır ki, bu qədər ünlü şəxsiyyətləri, azman sənətkarları yetişdirib. Vətənimizin bütövlüyü uğrunda şəhid olmuş övladlarımızın məzarlarını ziyarət edəndə dədələrimin keşməkeşli həyatı, onların illər boyu Qarabağ həsrətini, yurd sevgisini xatırlayıram. Gözlərim dolur. Keçdiyimiz tarix bizi daha güclü olmağa, Azərbaycanımızın səsi olaraq Türkiyədə və dünyada daha çox işlər görməyə ruhlandırır.

***– Azərbaycan rəqslərini saymaqla bitməz, bəs Dərya xanım hansını daha çox sevir?***

– Doğrudur, milli rəqslərimiz çoxdur, hərəsinin öz yeri var. Ancaq "Vağzalı", "Mirzəyi" rəqsi mənim daha çox ruhumu oxşayır, bu havaları ürəklə rəqs edirəm. Repertuarımda, həmçinin "Sarı gəlin" rəqsi də yer alır. Mütəmadi olaraq, demək olar, bütün tədbirlərdə bu rəqsimizi ifa edirəm. Tanınmış bəstəkarımız Ələkbər Tağıyevin "Azərbaycan qızıyam" mahnısını dinləməkdən doymuram. Bu yaxınlarda istəyirik ki, bu mahnı əsasında rəqs qurub klip çəkdirək. Bu rəqsə Azərbaycandan olan dəyərli, istedadlı xoreoqraf dostum Şəhriyar Cəfərov quruluş verir. İnanıram ki, bundan sonra iştirak etdiyimiz festivallarda böyük maraqla qarşılanacaq.

***– Bir az poeziyanızdan danışaq.***

– İlk dəfə yazdığım şeir məktəb dövründə olub. Müəllim Atatürkə aid şeir yazmağımızı tapşırdı. Dedi ki, kitablardan istifadə etməyək. Evə fikirli halda gəldim. Atatürkü çox sevdiyim halda, onunla bağlı fikirlərimi yazmaq həyəcanverici idi. Anam bunu görüb "qızım, sən Atatürkü sevirsən. İstəsən, yaza bilərsən. Gözlərini yum, düşün və ürəyindən keçənləri yaz"– deyib məni xeyli ürəkləndirdi. Yazdığım həmin şeir məktəbdə ən çox bəyənilən oldu və birinci yerə layiq görüldü. Uşaq yaşlarımdan müəllimim və valideynlərim məndə özümə inam aşıladılar. Uğur qazanmaq üçün bu, çox önəmlidir.

2016-cı ildə "Susdum" adlı şeirlər kitabım işıq üzü görüb. Kitabda olan şeirlərim həm Türkiyə, həm də Azərbaycan türkcəsində oxuculara təqdim edilib. Könlümə ilham verən duyğularımı poeziyanın dili ilə qələmə alıram. Şeirlərim arasında Vətən həsrəti, yurd sevgisinin ifadəsi var.

***– Ədəbi yaradıcılığınızda həm də soyqırımı mövzusu üstünlük təşkil edir.***

– Hekayələrimdə təsvir etdiyim hadisələr bədii təfəkkürün məhsulu deyil, dədəmdən, yaşlı insanlardan eşitdiyim, yaşanmış gerçək hadisələrdir. Uşaq ikən babamdan həmişə bu barədə danışmağı xahiş edərdim. O da hər dəfə yeni hadisələr danışardı. Yəni "qaçhaqaç" dedikləri dövrə aid bu acı hekayələr heç vaxt bitmədi. Uşaq ikən elə bilirdim ki, babamın danışdıqları hekayədir, sonra ağlım kəsəndə bunların həqiqət olduğunu öyrəndim. "Susdum" adlı şeir kitabım işıq üzü görəndən sonra yazar dostlarımdan biri Oktay Hacımusalı təklif etdi ki, mən "qaçhaqaç" silsiləli hadisələri hekayə şəklində qələmə alım. Söhbət düşəndə babamın danışdıqları hadisələrin mənim ruhumu necə dərindən sızlatdığını hiss edirdim. "Güllük niyə küllük oldu?" adlı ilk hekayəm maraqla qarşılandı. Hekayədə İğdırın Güllük kəndinin amansızca yandırılmasından bəhs edilir. Odur ki, gələcəkdə bu istiqamətdə yazdığım hekayələri də yayımlamaq arzusundayam.



Qoy tarixi keçmişimiz olan qan yaddaşımız unudulmasın, gələcək nəsil həmin hadisələrdən xəbərdar olsun.

***– Türkiyədə yaşasanız da, hər zaman Azərbaycanı müxtəlif festivallarda da qürurla təmsil edirsiniz. İstərdim ki, "Anka" Azərbaycan rəqs və sənət klubunun fəaliyyətindən danışasınız.***

– Yaradıldığı ildən bu yana, "Anka" Türkiyədə və xaricdə təşkil edilmiş bir sıra festivallarda uğurla təmsil olunub. Bu il də bir sıra festivallarda olmuşuq. "Anka" üçün əhəmiyyətli hadisələrdən biri Türkiyənin Bursa şəhərində keçirilən Beynəlxalq Folklor Festivalları Təşkilatının illik toplantısında quruma üzv seçilməyimiz oldu. Çox fəxr edirəm ki, təşkilatda Azərbaycanı "Anka" təmsil edir.Türkiyədə Azərbaycanla bağlı keçirilən xüsusi bayram tədbirlərində–28 May Respublika Günü, Dünya Azərbaycanlılarının Həmrəylik Günü, eləcə də Novruz bayramı münasibətilə olan tədbirlərdə həvəslə iştirak edirik.

Mədəniyyətimizi, rəqslərimizi tanıtmaqda bizim də töhfəmizin olmasını görmək xoşdur. Milli-mədəni dəyərlərimiz olan rəqslərimizi sənətkarlarımız bu günə kimi böyük sevgi ilə yaşatmışlar. Məsələn, Azərbaycan rəqsinin fədakar təbliğatçılarından olan Əminə Dilbazinin rəqsləri bu gün də gələcək nəsil üçün örnəkdir. Bu günlərdə Prezident İlham Əliyevin Əminə Dilbazinin anadan olmasının 100 illiyinin qeyd edilməsi ilə bağlı imzaladığı sərəncam milli rəqs sənətimizə verilən yüksək qiymətdir.

***– Gələcək planlarınız nədir?***

– "Anka" Azərbaycan rəqs və sənət klubunun fəaliyyətini daha da gücləndirmək, növbəti illərdə də sənət festivallarında milli rəqslərimizi təqdim etmək, sənətsevərləri sevindirmək arzusundayıq. Hazırda yeni hekayələr üzərində işləyirəm. Gələcəkdə onların işıq üzü görməsini planlaşdırıram. Ümidvaram ki, "Qaçhaqaç" silsiləli hekayələri oxucular bəyənəcək. İlk hekayəm işıq üzü gördükdən sonra bir çox insanların təəssüratlarını oxudum və eşitdim. Sosial şəbəkə üzərindən bir sıra oxucular onların da kəndlərində yaxınlarının erməni soyqırımına məruz qaldığını və bu hadisələri də qələmə almağımı xahiş edirlər. Qismət olarsa, hekayələrin səsli versiyasını da hazırlayacağıq. İnanıram ki, fərqli formatda olacaq bu kitab həm Türkiyə, həm də Azərbaycanda maraqla qarşılanacaq.



**Söhbətləşdi:**
**Əfsanə BAYRAMQIZI, "Xalq qəzeti"**